KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 1 (17) 2023

## BİBLİOQRAFİYAŞÜNASLIQ

Xuraman Telman qızı Ağayeva
*Bakı Dövlət Universiteti*
*İnformasiya və sənəd menecmenti fakültəsi*
*Sənəd menecmenti kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*khuraman_v@mail.ru*

# SƏNƏD-İNFORMASİYA MÜHİTİ VƏ KONSALTİNQ XİDMƏTLƏRİ

***Xülasə:*** *Məqalədə idarəetmənin bütün sahələrində tətbiq olunmağa başlayan informasiya konsaltinqinin kitabxana-informasiya sahəsinə təsiri ilə bağlı məsələlər araşdırılır və kitabxanalara əlavə gəlir gətirə biləcəyi əsaslandırılmağa çalışılır. Eyni zamanda məqalədə informasiya konsaltinqinin və logistikasının əsasında konsaltinq sənayesinin yaranması, inkişafı və informasiya texnologiyaları sahəsindəki inkişafla bağlılığı və konsaltinq və logistik firmaların yaranmasına təkan verən bir sıra amillər və konsaltinq prosesinin gedişi haqqında məlumat verilir.*

***Açar sözlər:*** *konsaltinq, informasiya, logistika, rəqəmsal mühit, idarəetmə, informasiya təminatı, innovasiya fəaliyyəti, informasiya axını, ödənişli xidmət, təhsi xidmətləri.*

**Khuraman Telman gizi Ağayeva**

## Document-information environment and consulting services

***Abstract:*** *The article examines the issues related to the impact of information consulting, which has started to be applied in all areas of management, on the library-information field, and tries to justify whether it can bring additional income to libraries. At the same time, the article deals with the emergence and development of the consulting industry on the basis of information consulting and logistics and its connection with the development in the field of information technologies, as well as a number of factors that encourage the creation of consulting and logistics firms and the progress of the consulting process.*

***Key words:*** *consulting, information, logistics, digital environment, management, information provision, innovation activity, information flow, paid service, distribution services.*

№ 1 (17) 2023

Хураман Тельман кызы Агаева

**Документально-информационная среда и консультационные услуги**

***Резюме:*** *В статье рассматриваются вопросы, связанные с влиянием информационного консалтинга, начавшего применяться во всех сферах управления, на библиотечно-информационное поле, и делается попытка обосновать, может ли он принести дополнительный доход библиотекам. В то же время в статье приводится информация о взаимосвязи между основанием информационного консалтинга и логистики, возникновением и развитием консалтинговой индустрии и развитием в сфере информационных технологий, а также ряд факторов, стимулирующих создание консультационных и логистических фирм и ход процесса консультирования.*

***Ключевые слова:*** *консалтинг, информация, логистика, цифровая среда, управление, информационное обеспечение, инновационная деятельность, информационный поток, платная услуга, услуги дистрибуции.*

**Giriş:** Rəqəmsal mühitin günü-gündən genişləndiyi müasir dünyamızda yeniliklərin tətbiqi artıq obyektiv zərurətə çevrilmişdir. Yaşadığımız müasir dövrdə idarəetmənin bütün sahələrində tətbiq olunmağa başlayan informasiya konsaltinqi bu cür yeniliklərdən biridir. İnkişaf etmiş Qərb ölkələrində informasiya konsaltinqi XX əsrin 50-60-cı illərində yaranmağa başlamış və həmin dövr "konsaltinqin qızıl əsri" adlandırılmışdır. İntellektual, elmi, nəzəri bilik, peşəkarlıq, yeniliyi tətbiq etmək bacarığı, analitik, məntiqi və diaqnostik təhlil metoduna əsaslanan informasiya konsaltinqi xidmətləri son zamanlar kitabxana-informasiya sahəsinə də əlavə gəlir gətirə bilər.

İnformasiya konsaltinqi həyatımızın bütün sahələri üçün əhəmiyyətlidir. Xüsusilə, bu gün Azərbaycanda çətin dövrünü yaşayan kitabxana-informasiya sahəsinə yeni informasya texnologiyalarının, innovasiyaların, kitabxana-informasiya mühitinə əlavə gəlir gətirən yeni lahiyələrin tətbiqi zəruridir.

Konsultantlar bütün sahələrdə vardır. Məsələn, bir müəssisənin və ya idarənin, dizaynı, moda sahəsində, firmalarda, şirkətlərdə, tibb müəssisələrində yüksək elmi potensialı olan, sahəni yaxsı bilən insanlar konsultant kimi fəaliyyət göstərirlər. Onların xidmətləri qarşılığında müəyyən məbləğ zəhmət haqqı da ödənilir.

Hətta ali məktəblərdə ən dəyərli, elmi-potensialı yüksək olan, sahəni nəzəri və təcrübi cəhətdən yaxsı bilən alimlər, peşəkarlar konsultant kimi elmin inkişafına xeyir verirlər. Belə şəxslərə dəyərli məsləhətlərinə görə müəyyən haqq da ödənilir, əvəzində həmin təşkilatlar düzgün strateji xətt götürür, iqtisadi, siyasi, mədəni və elmi rəqabətdə qalib gəlirlər.





№ 1 (17) 2023

Məsələnin qoyuluşu: Konsaltinq xidmətləri yaradıcılıq, intellektual bilik tələb edir. Konsultant sahənin mahir bilicisi olmalı, lazım gəldikdə doğru məsləhət verməyi bacarmalı, onun verdiyi məsləhətlər elmi biliyə əsaslanmalı, diaqnostik təhlil qabiliyyətinə malik olmalı, idarə və müəssisəyə, kitabxanaya maliyyə gəliri gətirməlidir.

İnformasiya konsaltinqi - məsləhətçi-müştəri qarşılıqlı əlaqəsinə yönəlmiş müştəri ehtiyaclarına uyğunlaşdırılmış biliyə əsaslanan xidmətlərdir (3, 41).

İnformasiya konsultasiyası - kitabxanaçılara proseslərinə əlavə dəyər verən xidmətlər təqdim etmək imkanı verər və həm də müəssisəyə əlavə gəlir gətirə bilər.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun işğalda olduğu dönəmdə 9 mərkəzləşdirilmiş kitabxana fondu, 927 kitabxana və 4 milyondan artıq kitabxana kolleksiyası dağıdılaraq məhv edilmişdir. Hazırda işğaldan azad olunmuş Azərbaycanın dilbər guşəsi olan Dağlıq Qarabağın Şuşa şəhəri Azərbaycanın mədəniyyət mərkəzi elan olunmuş, Dağlıq Qarabağda kitabxana-informasiya sisteminin bərpası üçün yeni lahiyələr həyata keçirilməyə başlanılmış, ən müasir tipli kitabxana-informasiya sisteminin qurulması üçün düşünən beynlər, peşəkarlar dəvət olunmuşdur.

Ağsaqqal sözü, xeyirli məsləhət uğurların, müvəffəqiyyətin əsasıdır. Ağıllı insanlardan məsləhət almaq bütün tarixi dövrlərdə vacib olmuş və sosial-iqtisadi sahələrin inkişafına təkan vermişdir. Azərbaycanda "Böyüksüz yerdə oturma", "Çörəyi ver çörəkçiyə birini də artıq ver" və ya "Məsləhətli don gen olar" kimi atalar sözü tez-tez işlədilir. Artıq bütün sahələrin idarə olunmasına düşünən beyinlər, peşəkarlar dəvət olunur. İnkişaf etmiş xarici olkələrdə də və respublikamızda da elmi, biliyi, intellektual səviyyəsi, məntiqi təfəkkürü olan insanlara dəyər verilir, onlar təhsilə, idarəetməyə cəlb olunurlar. İnanırıq ki, yaxın gələcəkdə bu proses dərinləşəcək, ancaq elmi, biliyi olan insanlar təhsilə, idarəetməyə cəlb olunacaqlar

Respublikamızda informasiya konsaltinqinin əhəmiyyəti hələlik lazımınca qiymətləndirilməmişdir. İngiliscədə "consultinq", latın dilində "consultatio" adlanan konsaltinq dilimizdə konsultasiya, məsləhət anlamına gəlir.

Məsələnin izahı: Müxtəlif idarə və müəssisələrdə, kitabxanalarda həlli çətin olan problemli məsələlərin düşünən beynlər vasitəsilə həll etmək, elmi biliklərdən, intellektual potensialdan bəhrələnmək, real vəziyyəti dəyərləndirmək və sahənin inkişafı üçün əhəmiyyətli qərarlar qəbul etmək kitabxana konsaltinqinin əsasını təşkil edir. Bu ştatda olan konsultantlar da ola bilər, sahəni gözəl bilən kənar konsultantlar da, eyni zamanda kitabxana daxilində və ya kənarda da ola bilər. Onu da qeyd etmək lazımdır ki, kitabxanaçılıq-informasiya sahəsinin mütəxəssisləri sənəd axınını,bu sahədə

yenilikləri, informasiya axtarışını, yerli və beynəlxalq verilənlər bazalarını yaxşı biblirlər. Ona görə də konsultant olmaq onların haqqıdır.

İdarəetmə üzrə Amerika Konsultantlar İnstitutunun prezidenti E.M.Şeysin dediyi kimi: "konsultantlar üçün öyrənmə dövrü ömür böyu davam edir" (5, 16).

Konsultant-kitabxana-informasiya müəssisələrini çətin vəziyyətdən çıxarmaq məqsədilə problemlərin həllinə yardım edən, kitabxana-informasiya işini düzgün strateji istiqamətə yonəldən, sahənin gözəl bilicisi olan analitik və məntiqi təfəkkürə malik mütəxəssisdir. Konsultant bunun üçün aşağıdakıları bilməlidir:

- kitabxana-informasiya müəssisəsinin qarşısında duran problemləri diqqətlə analiz etməli, nöqsanları üzə çıxarmalı;
- kitabxana-informasiya müəssisəsinin gələcəkdə düzgün inkişafı üçün layihə hazırlamalı, təklif verməli, başqa şirkətlərlə də müqavilələr bağlamalı, onlarla daimi əlaqə saxlamalı, əlavə gəlir mənbələri tapmalı;
- informasiya texnologiyalarının tətbiqi sahəsində düzgün strateji xətt seçməli, yeni tətbiqi proqramları bilməli;
- kitabxana-informasiya müəssisələrinin inkişafı üçün donor təşkilatları işə cəlb etməli, konsaltinq layihələrini tətbiq etməyi bacarmalıdır.

Dəvət olunmuş konsultantlar kitabxana-informasiya müəssisəsinin işi ilə dərindən tanış olduqdan sonra konsultant hər bir şöbənin qarşısında duran məsələləri, vəzifələri düzgün müəyyən edə bilməli, işçilər arasında ədalətli iş bölgüsü apara bilməli, baza təhsilinə görə işçilərin şöbələr üzrə paylanmasını düzgün təşkili üçün məsləhətlər verməyi bacarmalıdır. Kitabxana-informasiya müəssisəsində yaranmış vəziyyətdən asılı olaraq konsultantlar təkbaşına və ya komanda şəklində də fəaliyyət göstərə bilərlər.

Konsultantlar diaqnostik analiz etməyi, analitik fikir yürütməyi bacarmalı, eksterimal vəziyyətdən doğru qərar qəbul edərək müəssisənin xeyrinə çalışmalı, əlavə gəlir mənbələri əldə etməklə müəssisənin inkişafını sürətləndirməlidirlər.

İnformasiya konsaltinqinin və logistikasının əsası, konsaltinq sənayesinin yaranması, inkişafı və informasiya texnologiyaları sahəsindəki inkişafla bağlıdır. Tədqiqatçılar XX əsrin 80-90-cı illərində informasiya konsaltinq və logistikası sahəsindəki inkişafı araşdıraraq konsaltinq və logistik firmaların yaranmasına təkan verən bir sıra amilləri ortaya çıxardılar:

1. Sürətli inkişaf: 1980-ci illərdə İnternetin yaranması ilə müəssisə və təşkilatlar öz daxili informasiya sistemi personalından istifadə etməklə bu sürətli inkişafa yetişə bilmədilər və rəqabətdə üstünlüyü əldə etmək üçün kənar mənbələrdən ixtisaslaşmış yardım istəməli oldular. Bu, informasiya konsaltinq və logistikası sənayesinin inkişafında ilk addım idi.

2. Texnoloji inkişaf: Yeni və inkişaf edən texnologiya müəssisə və institutları bu dəyişikliyə uyğunlaşmağa məcbur etdi. Bu, işi düzgün qurmaq üçün, düzgün "məhsul" əldə etmək üçün həm təlimlər, həm də kənar yardım





tələb edirdi. Bu səbəbdən informasiya sistemləri ilə bağlı xidmət göstərən məsləhət şirkətlərinin əhəmiyyəti artmaga başladı.

3. Yeni biliklərin və bacarıqların artması: Rəqəmsal texnologiya inkişaf etdikcə, Proqramlaşdırma dillərinə, verilənlər bazası idarəetmə sistemlərinə və əməliyyat sistemini dəstəkləyən personala, yeni bu texnologiyaları bilən insanlara tələbat artdı. Təşkilatların mürəkkəb tapşırıqları idarə etmək üçün peşəkar köməyə ehtiyacı yarandı və bəzən onlar informasiya sistemlərinin işini (kodlaşdırma, sınaq, proqram təminatı və s.) konsaltinq firmalarına həvalə edirdilər. Tələbələrlə aparılan araşdırmalardan məlum oldu ki, firmalar tərəfindən ən cox müraciət olunan sahə yeni informasiya texnologiyaları və proqram təminatı ilə bağlıdır.

Konsaltinq prosesinə giriş mərhələsi necədir? Bu məsələni araşdıraq. Məsləhətçi və müştəri bir layihə üzərində birgə işləmək barədə razılığa gəldikdə imzalanan müqavilə ilə tamamlanır. Müqavilələr hər bir ölkənin hüquq sisteminə və adi iş üsullarına uyğun formalaşdırılır. İnformasiya məsləhəti prosesinə razılıq əldə olunarsa, müqavilə imzalanir. Müqavilədə layihənin başlama və bitmə tarixləri, ödəniş məlumatları, rüsumlar və göstərilən ödəniş müqabilində müştəriyə nə təklif ediləcəyi aydın olmalıdır. Bunun həm məsləhətçi, həm də müştəri üçün faydalı olacağı qeyd edilir. Konsaltinq prosesinin aşağıdakı mərhələləri vardır:

- Müştərilərin qarşılanması və tələblərin müəyyən edilməsi,
- Potensial məlumat ehtiyaclarının müəyyən edilməsi,
- İqtisadi amillərin, məlumat xərclərinin, büdcələrin, məhdudiyyətlərin, ödəniş strukturlarının və korporativ maraqların qiymətləndirilməsi,
- Məsləhətləşmə prosesinə rəhbərlik etmək üçün məqsədlərin, strategiyaların və planların müəyyən edilməsi,
- Mövcud məlumat mənbələrinin müəyyən edilməsi,
- Resurs faylının yaradılması, redaktə edilməsi və ona girişin təmin olunması,
- Müştəri-konsultant əlaqələrinin inkişafı,
- Problemin və ya tələbin infrastrukturunun tədqiqi,
- Məlumatın verilməsi (xidmət),
- Cavabın ən çox ehtimal olunan mənbəyinə yönləndirmə,
- Prosesin izlənməsi və monitorinqi,
- Məlumatların toplanması və əks əlaqə, prosesin qiymətləndirilməsi.

**Nəticə**

Məsləhətçilər ən son yenilikərlə müəssisəyə gəlirlər və müxtəlif mənbələrdən təcrübə gətirirlər. Onlar uzaqgörənlik nəticəsində, müəssisədə heç kimin görmədiyi işi görə bilərlər. Bəzən məsləhətçilər real faktlarla müştərini inandırmaq məcburiyyətində olurlar. Konsaltinqin vəzifəsi təşkilatların rəqabət qabiliyyətini yaxşılaşdırmaq üçün elmdən, biliklərdən,

resurslardan səmərəli istifadə etmək yollarını göstərməkdir. Konsaltinq xidmətlərinin üstünlüklərini və mənfi cəhətlərini aşağıdakı kimi izah etmək olar.

- ***Ekspert yanaşma:*** yüksək elm, bilik və təcrübə sayəsində konsaltinq firmaları daxili mənbələr hesabına daha yaxşı və daha peşəkar qərarlar qəbul edə bilərlər.
- ***Səmərəlilik:*** təcrübə ilə tanışlıq konsaltinq firmasına daxili resurslardan daha sürətli və daha səmərəli istifadə imkanı verə bilər.
- ***Təlim:*** məsləhətləşmə prosesində daxili personal -məsləhətçinin ən effektiv və məhsuldar yanaşmasından, təkliflərindən istifadə etmək üşün təhsil alır, təlimlərdə iştirak edir. Beləliklə, məsləhətçi uzun zaman kəsiyində şirkətə fayda verəcək böyük məlumat ötürülməsini təmin edir.
- ***Vaxt amili:*** konsaltinq şirkətlərinə daxili layihələri qısa zaman kəsiyində həyata keçirməyə imkan verir, qlobal problemlərin həllinə zaman ayıra bilir.

**Mənfi cəhətlər:**

- ***Asılılıq yaradır:*** konsaltinq xidmətləri sərfəli olsa da, şirkətlər hətta ən kiçik problemlərin həll edilməsi üçün konsaltinq şirkətlərindən asılı olurlar.
- ***Əməkdaşların müqaviməti:*** dəyişikliklərə və səlahiyyətlərin verilməsinə müqavimət-bu insanın psixoloji aspektidir, hətta məsləhətçi yaxşı işləsə belə, həlli reallaşmaya bilər. Bəzən müştəri məsləhətçinin təkliflərindən narazı ola və qəbul etməyə bilər.
- ***Şirkət məlumatlarına giriş:*** ümumiyyətlə, konsaltinq şirkəti bir işin icrası zamanı şirkətin qeydlərinə və fayllarına giriş əldə edir, bununla da şirkətin gizlilik hüququnu pozur.
- ***Digər mülahizələr:*** layihələrin vaxtında və plana uyğun olaraq başa çatdırılmaması ehtimalı var. Bu, bəzən konsaltinq şirkətləri ilə mürəkkəb münasibətlərə gətirib çıxarır və müştəri tərəfindən narazılığa səbəb ola bilər.

İnformasiya konsaltinqi çərçivəsində aşağıdakı xidmətlərin göstərilməsi təklif olunur: tədqiqat və informasiya xidmətləri, məlumatların idarə edilməsi və təhsil.

***Tədqiqat xidmətləri:*** Buraya bazar araşdırması və rəqabət kəşfiyyatı üzrə tədqiqatların daxil edilməsi nəzərdə tutulur. Bazar araşdırması hədəf bazarlar və ya müştərilər haqqında məlumatların toplanması, təşkili və təhlilidir. Rəqabətli intellekt strateji və davamlı üstünlük yaratmaq məqsədilə şirkət və ya sənaye haqqında məlumat toplamaq və toplanmış məlumatın analizi, təhlili. Rəqabətli intellekt qərar qəbuletmə prosesinin əsas dinamikasıdır. Rəqabətli kəşfiyyat tədqiqatına hədəf bazarlar, rəqiblər və hədəf müştərilər daxildir.

Göstərilməsi nəzərdə tutulan informasiya xidmətləri:

- Tədqiqat və təkmilləşdirmə layihələri ilə bağlı məlumat xidməti;





- Aktual elan xidməti, reklamlar;
- Məlumat fayllarının hazırlanması, məhsul profili, şirkət profili ilə bağlı dizayn işləri;
- Patent və standart məlumat xidməti və hüquqi məlumat xidməti (məsələn, milli qanunlar, qaydalar, prosedurlar qabiliyyətlərini artırmaq üçün biliklərdən səmərəli istifadə edilməsidir, pullu və pulsuz məlumat bazalarına girişin əldə olunması.

İnformasiya idarəçiliyi çərçivəsində:

- Müştərilər üçün məlumat idarəetmə strategiyasının işlənib hazırlanması, həyata keçirilməsinin planlaşdırılması və layihənin idarə edilməsi kimi məsləhət xidmətləri göstərilə bilər.

Təhsi xidmətləri çərçivəsində:

- elmi-tədqiqatla bağlı mövzular üzrə təlimlər, treyninqlər, işçilər üçün informasiya mədəniyyəti təlimləri, bazar araşdırması və rəqabətli kəşfiyyat tədqiqatlarının aparılmasına dair təlimlər, məlumatların idarə edilməsi üzrə maarifləndirmə tədbirləri və məlumatların idarə edilməsi üzrə hərtərəfli təlimlər təklif oluna bilər.

Proses informasiya konsaltinqi ilə bağlı rəyin verilməsi və xidmətlərin qiymətləndirilməsi ilə dayandırılır. Xidmətlərin effektiv və səmərəli çatdırılması və təkmilləşdirilməsi üçün proseslərin monitorinqi, əks əlaqə yaradılır. İnformasiya konsaltinqi əlavə dəyər yaradan müştəri yönümlü xidmətdir. Burada informasiya əmtəəyə çevrilir, yəni alınan və satılan olur.

Xidmətin keyfiyyəti, müvəffəqiyyəti məsləhətçinin təcrübəsindən və bacarıqlarından asılıdır. İnformasiya məsləhət xidmətləri ilə məşğul olan kadrlar davamlı yenilikləri öyrənməli, bilik və bacarıqlarını inkişaf etdirməlidirlər.

Məsləhətçilər - təhlil, problemlərin həlli, layihənin idarə edilməsi, vaxtın idarə edilməsi, sürətli və asan öyrənmə, biliklərin insanlara ötürülməsi, inandırma və ünsiyyət bacarıqları, risk alma, çeviklik, təşəbbüskarlıq, özünə inam, dürüstlük və qərəzsizlik kimi xüsusiyyətlərə malik olmalıdırlar. Konsultant o qədər qüsursuz işləməlidir ki, kişik bir nöqsanı olsa belə o, yenidən dəvət almaya bilər.

İnformasiya resursları informasiya məsləhət xidmətləri üçün mühüm rol oynayır. Ödənişli xidməti planlaşdırarkən kitabxana öz kolleksiyasının güclü tərəflərinə diqqət yetirməklə xidmətin göstərilməsi zamanı xərcləri azalda bilər. Xərclərin diqqətlə və dəqiq müəyyən edilməsi xidmətlərin qiymətlərinin müəyyən edilməsi üçün vacibdir.

Kitabxanaçılar artıq soraq biblioqrafiya xidmətləri vasitəsilə bir növ məsləhət xidməti göstərirlər. Soraq biblioqrafiya xidməti xaricdə arayış və ya servis xidmətləri adlanır. İstifadəçi və ya müştəri ilə tetatet görüş zamanı baş verən birdəfəlik xidmət adlanır. İstifadəçi soruşur konsultant-biblioqraf ona cavab verir. Görüş zamanı istifadəçinin dəqiq tələbatını

müəyyənləşdirmək üçün ona suallar verməklə onun məsələ ilə bagli malik olduğu informasiyanı tam öyrənmək və dəqiqləşdirmək lazımdır.

Ümid etmək olar ki, Azərbaycan kitabxanalarının idarə olunmasına düşünən beynlərin cəlb olunası, informasiya konsultantı ştatının yaradılması, konsaltinq xidmətinin təşkil olunması respublikamızda kitabxana-informasiya xidmətinin səviyyəsini yüksəldəcək və bu gün çətin vəziyyətdə olan kitabxana-informasiya müəssisələrinə əlavə gəlir mənbələri cəlb olunmasına şərait yaradacaqdır.

## ƏDƏBİYYAT


1. *Ağayeva X.T. Kitabxana innovasiyaları və müasir dünyada kitabxanaların inkişafının perspektivləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. - 2015. - №2. – S. 32-38.*
2. *Ağayeva X.T. Kitabxana-informasiya sisteminin idarə olunmasının yeni növu-informasiya konsaltinqi // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. - 2020. - №1. – S. 55-62.*
3. *Ağayeva X.T., Bayramova İ.Z. İnformasiya konsaltinqi və logistikası kitabxanaçılıq-informasiya fəaliyyətində dinamik və interaktiv prosesdir // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. - 2022. - №1. -S. 36-43.*
4. *Bilgi danişmanlığı və universite kütübhanelerinde bilgi danişmanlığı hizmetleri:yüksük lisans tezi / Deniz Katırcı; tez danişmanı prof. Dr. Oya Gürdal Tamdoğan. - Ankara, 2019. - 181 s.*
5. *Tkaliç A.İ. Konsaltinq xidməti / Tərc. ed: H.Nərimanoğlu, V.Kazımzadə. - Bakı, 2011. - 216 s.*
6. *http://anl.az/new/az/result/40*
7. *https://ru.wikipedia.org/wiki*